

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 175 (20.829)

19 sentyabr 2013-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Quba rayonuna səfərə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin, Quba Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının, Gənclər Mərkəzinin, Qubada Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında inşa olunmuş “Yaşıl teatr”ın, Yeni Azərbaycan Partiyası Quba Rayon Təşkilatının yeni inzibati binasının açılışlarında, Quba şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin başa çatdırılması münasibətilə təşkil olunan mərasimdə iştirak etmiş, Qubanın Qırmızı qəsəbəsində yeni salınmış Heydər bağında yaradılan şəraitlə tanış olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Qubanın Qırmızı qəsəbəsi ərazisində, Qudyalçay üzərindəki tağlı Qırmızı körpünün yenidənqurmadan sonrakı vəziyyəti ilə və rayonun Əski-İqriq kəndində beşulduzlu “Rixos Quba Azerbaijan” otelində görülən işlərlə tanış olmuşdur.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Quba-Qusar avtomobil yolunda, Qudyalçay üzərində beşaşırımlı körpünün açılışında iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Qubada Bakı Dövlət Universitetinin tədris-təcrübə və istirahət mərkəzinin, Azərbaycan Dövlət İqtisad Universitetinin tədris, idman və istirahət kompleksinin açılışlarında iştirak etmişdir.

# Elmi tədqiqatların səmərəliliyi artırılmalıdır

*Bu fikirlər AMEA Naxçıvan Bölməsində keçirilən yığıncaqda səsləndirilib*



**Dünən AMEA Naxçıvan Bölməsində sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən elm və təhsil müəssisələri qarşısında duran vəzifələrə həsr olunmuş müşavirə ilə bağlı yığıncaq keçirilib.**

Yığıncağı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev müşavirədə elm və təhsil müəssisələri qarşısında qoyulan vəzifələrdən danışıb, verilən tövsiyə və tapşırıqların mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Bölmə sədri qeyd edib ki, elm və təhsil müəssisələri üçün yaradılan şərait, xüsusilə muxtar respublikada elmin inkişafına göstərilən dövlət qayğısı elm adamlarının məsuliyyətini daha da artırır. Çünki elmin və təhsilin inkişafı bilavasitə dövlətin strateji maraqlarının təmin olunmasına xidmət edir. Müstəqil Azərbaycan dövləti gücləndikcə bu sahənin daha da inkişafının təmin olunması üçün ciddi addımlar atılır, islahatlar aparılır. Bu diqqət və qayğı Naxçıvan Muxtar Respublikasında xüsusilə nəzərə çarpır. AMEA-nın Naxçıvan Bölməsinin əməkdaşları üçün yüksək iş şəraitinin yaradılması, bölmənin bütün elmi işçilərinin müasir kompüter avadanlıqları ilə təmin olunması, son günlərdə AMEA Naxçıvan Bölməsinin Elektron kitabxanasının istifadəyə verilməsi, elmi işçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər dediklərimizə əyani sübutdur. İndi AMEA Naxçıvan Bölməsinin əməkdaşları Elektron kitabxananın resurslarından istifadə etməklə yanaşı, dünyanının 30-a yaxın nüfuzlu kitabxanalarının elektron resursları ilə də tanış ola bilərlər.

Ali Məclis Sədrinin ***“Həyata keçirilən tədbirlər nəticəsində hər il ali təhsil müəssisələrinə qəbul olunan və xaricdə təhsil almağa göndərilən tələbələrin sayı artır, ölkəmizdə müxtəlif elm sahələri yaradılır, elmin iqtisadiyyata tətbiqi genişləndirilir. Bütün bunlar isə elm və təhsil sahəsində həyata keçirilən tədbirlərin əhatə dairəsinin daha da genişləndirilməsini, bu sahədə qarşıda duran vəzifələrin müəyyən edilməsini tələb edir”*** fikrini xatırladan akademik İsmayıl Hacıyev bundan sonrakı dövrdə bu elm mərkəzində aparılan tədqiqatların elmi və praktik nəticəliliyinin əsas şərt olduğunu əməkdaşların diqqətinə çatdırıb.

Qeyd olunub ki, ötən 10 il ərzində əməkdaşların 4867 əsəri çap edilib. Bunlardan 219-u kitab və monoqrafiyalardır. Çap olunan əsərlərdən 844-ü xarici ölkələrdə nəşr edilib. Sadalanan bu faktlar təqdirəlayiq olsa da, qarşıda duran əsas vəzifə elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi olmalıdır. AMEA Naxçıvan Bölməsinin əməkdaşları ziyalı adını daim uca tutmalı, informasiya-kommunikasiya texnologiyalarından, eləcə də Elektron kitabxananın verdiyi imkanlardan səmərəli istifadə etməli, apardıqları tədqiqatların nəticəli olması ilə yanaşı, səmərəli təkliflər də verməlidirlər. Bölmənin elmi-tədqiqat institutları ali təhsil müəssisələri ilə əlaqəni möhkəmləndirməlidirlər.

AMEA Naxçıvan Bölməsində gənc tədqiqatçıların hazırlanması istiqamətində görülən işlərdən də bəhs edən bölmə sədri bu sahədə tədbirlərin gücləndirilməsi və elm fəaliyyətinin təmin olunması üçün görüləcək işlərdən danışıb.

Yığıncaqda çıxış edən AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tariyel Talıbov, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Hacıfəxrəddin Səfərli müşavirənin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi üçün rəhbərlik etdikləri elmi-tədqiqat institutlarının fəaliyyətini daha da gücləndirəcəklərini bildiriblər.

Yığıncağa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

**Xəbərlər şöbəsi**

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1995-ci ildə dahi bəstəkar, musiqişünas Üzeyir Hacıbəyovun anadan olduğu günün – 18 sentyabrın “Milli Musiqi Günü” kimi qeyd olunması haqqında Sərəncam imzalamışdır. Həmin tarixdən etibarən sentyabrın 18-i hər il ölkəmizdə “Milli Musiqi Günü” kimi qeyd olunur.***

# Milli Musiqi Günü qeyd edilib



Dünən bu münasibətlə Naxçıvan şəhərindəki C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının ətrafında tədbir keçirilmişdir. Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm naziri Sarvan İbrahimov çıxış edərək milli musiqi sənətimizin inkişafında Üzeyir Hacıbəyovun misilsiz xidmətlərindən danışmışdır. Qeyd olunmuşdur ki, məhz Üzeyir Hacıbəyovun zəngin yaradıcılığı ilə Azərbaycanda bəstəkarlıq məktəbinin əsası qoyulmuşdur. Bu bəstəkarlıq məktəbində neçə-neçə bəstəkar-musiqiçilər yetişmişdir.

Azərbaycan musiqisinin inkişafında ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə əldə olunan uğurlardan bəhs edən nazir qeyd etmişdir ki, milli musiqimizin böyük simaları olan Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Arif Məlikov kimi dünya şöhrətli bəstəkarlarımızın yaradıcılığı dahi rəhbər tərəfindən yüksək qiymətləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Şəmsəddin Qasımov çıxışında muxtar respublikamızda milli musiqimizin inkişafına göstərilən dövlət qayğısından danışmış, yeni istifadəyə verilən musiqi məktəblərinin musiqimizin gələcək inkişafındakı rolunu qeyd etmişdir.

Sonra Milli Musiqi Gününə həsr olunmuş konsert proqramı olmuşdur.

Konsert proqramında Naxçıvan Dövlət Filarmoniyası Kamera Orkestrinin ifasında dahi Ü.Hacıbəyovun “Leyli və Məcnun”, M.Maqomayevin “Şah İsmayıl” operalarından “Müqəddimə”lər səsləndirilmişdir. Naxçıvan Muxtar Respublikasının əməkdar artistləri Mübariz Əsgərovun ifasında “Sənsiz” romansı, Azər Cəfərlinin ifasında F.Əmirovun “Sevil” operasından “Balaşın nəğməsi” hissəsinin səsləndirilməsi tamaşaçılarda xoş ovqat yaratmışdır. Azərbaycan Respublikasının əməkdar artisti Gülyanaq Fərzəliyevanın, Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Tural Nəcəfovun, filarmoniyanın solistləri Yaşar Qurbanovun və Əli Davudinin ifalarında Üzeyir Hacıbəyovun bütün zamanların əbədiyaşar əsərləri dinlənilmişdir.

Həmin gün Naxçıvan şəhərindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında Naxçıvan Dövlət Filarmoniyası Estrada Orkestrinin, Saat Meydanında Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin “Şəlalə” instrumental ansamblının konserti olmuşdur.

Qeyd edək ki, Milli Musiqi Günü münasibətilə muxtar respublikanın rayon mərkəzlərində də tədbirlər keçirilmiş, konsert proqramları təşkil edilmişdir.

**Əli RZAYEV**

# ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin müavini Naxçıvanda səfərdə olub

Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirinin müavini Derek C.Hoqan sentyabrın 17-də Naxçıvan Muxtar Respublikasına ikigünlük səfərə gəlib.

Səfir müavini sentyabrın 17-də səfirliyin nümayəndə heyəti ilə birgə Naxçıvan Dövlət Universitetində olub. Qonaqlar universitet ərazisini gəzib, Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində, “Diplomatiya” kabinəsində və Elektron kitabxanada olublar. Universitetin rektoru, biologiya elmləri doktoru, professor Saleh Məhərrəmov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı sayəsində bu il kitabxananın binası



təmir olunub, yeni nəsil texnologiyalarla təchiz edilmiş kitabxana yaradılıb. Səfir müavini Derek C.Hoqan kitabxananın müasir informasiya-kommunikasiya texnologiyaları quraşdırılmış elektron oxu zalı və digər şöbələri, elektron kataloqu, həmçinin sorğulara operativ cavab almaq və virtual sifariş vermək üçün nəzərdə tutulmuş Elektron informasiya köşkü ilə tanış olub, elektron kataloq sisteminin, kitabların elektron versiyasının hazırlanması prosesini izləyib.

Sonra Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirinin müavini Derek C.Hoqan tələbələrlə görüşüb. Görüşdə Amerika və Azərbaycan arasında diplomatik münasibətlərin inkişafında elm və təhsil sahəsində tərəfdaşlığın rolundan bəhs edilib.

Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirinin müavini Derek C.Hoqan sentyabrın 18-də muxtar respublikamızın tarixi-mədəni yerləri ilə tanış olub. Səfər çərçivəsində Naxçıvanda bir sıra dövlət və hökumət rəsmiləri, siyasi partiyaların nümayəndələri ilə görüşlər keçirən Derek C.Hoqan səfərin sonuncu günü, dünən jurnalistlərin suallarını cavablandırıb.

Səfərinin məqsədindən danışan ABŞ-lı diplomat Naxçıvan Muxtar Respublikası ilə tanışlıqdan məmnun olduğunu diqqətə çatdırıb. Derek C.Hoqan bu səfərin Bakıdan kənara ilk səfəri olduğunu vurğulayıb. Azərbaycanda yeni olduğunu deyən diplomat səfərin həm muxtar respublika ilə, həm də seçkiöncəsi proseslərlə tanışlıq məqsədi daşıdığını deyib. Keçirdiyi görüşlərdən danışan səfir Naxçıvan Dövlət Universitetində tələbələrlə keçirdiyi görüşün onda böyük təəssürat yaratdığını bildirib.

“Muxtar respublikanın tarixi və mədəni abidələri ilə tanışlıq isə mənim Azərbaycan haqqında, o cümlədən Naxçıvanın tarixdəki və bugünkü böyük rolu haqqında məlumatlarımı daha da genişləndirdi, zənginləşdirdi”, – deyən səfir müavini regiona gələcəkdə də səfərlərinin mümkünlüyünü diqqətə çatdırıb.

**E.KƏLBİZADƏ**

# Cənab İlham Əliyevə real alternativ yoxdur

## Yeddinci prezident seçkilərinə doğru

**Ölkəmiz öz tarixinin növbəti seçkisinə yaxınlaşır. Bu, Azərbaycan Respublikası Prezidenti postuna keçiriləcək 7-ci rəsmi seçkilərdir. Bütün hallarda 3 və 7 rəqəmləri Şərq üçün – Azərbaycan üçün uğurlu rəqəm sayılır. Məsələn, ölkə Prezidenti postuna keçirilən 3-cü seçkilərdə dünya şöhrətli siyasətçi Heydər Əliyev Prezident seçilib. Bununla da, Azərbaycanın daha böyük bəlalara sürüklənməkdən qurtulmasını heç kəs, hətta ümummilli liderin o zamankı siyasi rəqibləri belə, inkar etmir. Məhz üçüncü seçimdə seçimlərinin doğrusunu edən Azərbaycan seçicisi gələcək siyasi-ideoloji xətti seçmiş oldu. Bu seçimin nə qədər doğru olduğunu isə ölkənin sonrakı inkişafı təsdiqlədi.**

Ulu öndərimiz Heydər Əliyev isə adını Azərbaycan tarixinə təkcə siyasətçi, siyasi lider, Prezident kimi deyil, DÖVLƏT XADİMİ kimi yazdıra bildi. Çünki ümummilli liderimiz Heydər Əliyev nə Moskvadan Bakıya, nə Bakıdan Naxçıvana, nə də yenidən Naxçıvandan xalqın təkidli tələbi ilə Bakıya qayıdarkən onu seçkilər deyil, müstəqil Azərbaycanın gələcəyi düşündürürdü. Bunun nəticəsində isə xalqımızın böyük oğlu Heydər Əliyev “kreslo davası”nı Qarabağ müharibəsindən daha üstün tutanlara dövlət xadimi ilə siyasətçi arasındakı fərqi göstərdi. Uinston Çörçilin sözləri ilə ifadə etsək, dövlət xadiminin siyasi xadimdən fərqi ondadır ki, siyasətçilər gələcək seçkiləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərir.

Ümummilli lider Heydər Əliyev 1998-ci ildə keçirilən dördüncü prezident seçkilərində də qalib gəldi.

2003-cü ildə isə Azərbaycan xalqı yeni Prezidentini seçməli idi. Bütün nəzərlərin yenidən ümummilli lider Heydər Əliyevə dikildiyi bir məqamda ulu öndər hər zamanki kimi xalqa doğru yolu göstərdi: “Mən İlham Əliyevə özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” – deməklə.

Bu, Heydər Əliyev idi! Özünə inandığı qədər heç vaxt heç kəsə inanmayan dahi! Və məhz bu inam ona ümumxalq inamını qazandırmışdı. Yeni lider isə bu inamı qazana bilmişdir. Cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevdən dövlətçilik və dövlət idarəçilik dərsini almış, lakin yeni dünya düzənində çoxkombinasiyalı gedişləri düşünə biləcək və reallıqları praqmatik cəhətdən qiymətləndirə biləcək yeni lider idi. Bu mənada o, ulu öndəri təqlid etmirdi, sözün əsl mənasında, onun davamçısı idi. Onun nitqi, jestləri, siyasi gedişləri fərqli olsa da, dövlətçilik yolu Heydər Əliyev yolunun davamı idi.

Cənab İlham Əliyev bir də ulu öndər Heydər Əliyevi o məqamda təkrarlayır ki, o, addımlarını seçkilərə hesablayaraq deyil, müstəqil və qüdrətli Azərbaycan dövlətçiliyinin gələcəyinə hesablayaraq atır. Bu yazıda ötən illər ərzində qazanılan uğurların statistikasını sadalamağı lüzumsuz bilirəm. Dünyanın fövqəldövlətlərindən biri olan Rusiyanın Prezidenti Vladimir Putinin “Axırıncı dəfə 2006-cı ildə olmuşam. O vaxtdan xeyli vaxt keçib. Azərbaycan sürətlə, əzmlə dəyişir, yüksək sürətlə inkişaf edən dinamik ölkəyə çevrilir. Azərbaycan iqtisadiyyatı inkişaf sürətinə görə dünyada ən yüksək göstəricilərdən birinə malikdir” ifadəsi cənab İlham Əliyevin prezidentliyi dövrünün inkişafını yetərincə açıq-aydın əks etdirir.

2013-cü il. Azərbaycan öz tarixinin yeddinci prezident seçkilərinə gedir. Alternativ əsaslarla keçirilən bu prezident seçkiləri öncəsi də nəinki ölkə, o cümlədən dünya mətbuatının xüsusi vurğuladığı bir məqam var idi: siyasi rəqiblərindən fərqli olaraq, cənab İlham Əliyev seçkidə iştirakı ilə bağlı hər hansı populist və təbliğat xarakterli bir fikir səsləndirmirdi. Hətta hakim partiya – Yeni Azərbaycan Partiyası onun namizədliyini irəli sürənədək onun susqunluğunu qoruması seçkilərə qatılacaq namizədləri çaş-baş salmışdı. O, regionda yaranmış ağır geosiyasi vəziyyətdə Azərbaycanın, sözün əsl mənasında, bütün istiqamətlərdə müstəqilliyini necə qoruması haqqında düşünərkən, digər siyasi qüvvələr seçkiyə hesablanmış populist bəyanatlar verməklə məşğul idilər. Hətta Azərbaycanı beynəlxalq və regional geostrateji savaşda məğlub duruma salmaq istəyən qüvvələrdən bu və ya digər formalarda dəstək almağa çalışmaqla. Ölkə başçısı, simvolik olaraq ifadə etsək, ümumdünya iqtisadi böhran fırtınasından və Yeni Şərq burulğanından Azərbaycan adlı gəmini sağ-salamat çıxara bildi. Nəzərə alsaq ki, hər iki böhranın təzahürləri və nəticələri ilə çoxları hələ də mübarizə aparır, deməli, öz işini Azərbaycançılıq naminə yerinə yetirən “kapitan”a Azərbaycanın qarşıdakı 5 ildə də ehtiyacı olacaq. Bu, İlham Əliyevi Azərbaycan dövlətçiliyinin yanında olan vətəndaşın seçməsi üçün ilk səbəb hesab edilə bilər. Cənab İlham Əliyevin bu vəzifəni layiqincə yerinə yetirməsinin arxasında isə onun vətənpərvərliyi ilə siyasi peşəkarlığı və intellektinin birləşməsi dayanır.

Bəs alternativlər? Düzdür, istənilən siyasi sistemdə siyasi müxalifətin vəzifəsi hakimiyyətə gəlmək olmalıdır. Bunu heç kəs inkar etmir. Lakin siyasi hakimiyyətə gəlməklə siyasi hakimiyyət ehtirası ilə alışıb yanmaq arasında böyük fərq var!!! Birincisi, yaradıcı siyasi qüvvələrin, ikincisi isə dağıdıcı siyasi qüvvələrin xarakteridir. Bizdə isə müxalif ünsürlər arasında hələ ki ikincilər üstünlük təşkil edir. İstənilən halda seçkiyə gedən siyasi qüvvənin hazırkı siyasətə alternativ konsepsiyası olmalıdır. Özünü hazırkı Prezidentə siyasi rəqib hesab edənlərin Azərbaycanın gələcək inkişaf və inteqrasiya istiqamətləri haqqında alternativ konsepsiyası faktiki olaraq yoxdur. Bu yazımızda yaranmış geostrateji vəziyyətdə Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsinə daha çox diqqət yetirdiyimiz üçün seçici olaraq özümüzə sual verək: “alternativlər” bizə hansı alternativ konsepsiyanı təklif edirlər? Axı dağıdıcı müxalifətin adı milli, maliyyə mənbələri qeyri-milli və hətta qeyri-məlum olan şurasının öz üzvlərinin mövqeyi belə, bu məsələdə üst-üstə düşmür. İstənilən halda bu qüvvələrə “Azərbaycanın gələcək inteqrasiyası hansı istiqamətdə olmalıdır?” sualı ünvanlansa, “hər ağızdan bir avaz gələcək”. Bu vəziyyətdə isə ən yaxşı halda ağlımıza qarğa, tülkü və xərçəngin çaydakı arabanı çaydan çıxarmağa cəhd göstərməsi haqqında təmsil gəlir. Dostların biri arabaya bağlanmış kəndiri havaya, biri torpağa, biri isə suya doğru çəkir. Belə olan halda illər ərzində müəyyən olunmuş, milli dövlətçiliyimizin, müstəqilliyimizin inkişafına xidmət edən konsepsiya varkən naməlum tale vəd edən, fərqli düşünənlərin “ağzından vuracağıq” düşüncəsi ilə hakimiyyətə gəlmək istəyən qüvvələri seçici niyə seçməlidir?

Elnur KƏLBİZADƏ

# Mətinlik məktəbi –

## Heydər Əliyev adına Hərbi Lisey



***Müasir dövrdə ölkələri güclü edən onun iqtisadiyyatı və ordusudur. İqtisadi əsaslar olmadan ordu yaratmaq, ordu olmadan güclü iqtisadiyyata malik olmaq mümkünsüzdür. Yalnız dahi şəxsiyyətlər bu iki sahənin təməlini eyni vaxtda quraraq inkişaf etdirə bilər. Azərbaycan xalqının bu sahədə bəxtinin gətirdiyini söyləmək nə qədər asan olsa da, bu cür ümummilli məsələləri həyata keçirmək heç də asan olmayıb – xüsusilə də ordu quruculuğu sahəsində görülən işləri. Dünya dövlətlərinin ordu quruculuğundakı tarixi şərait və imkanlar hər zaman fərqliliyi ilə seçilib. Azərbaycanın payına isə ordu yaratmaq yenicə qazanılmış müstəqilliyini qoruyub saxlamaq, torpaqlarını müdafiə etmək, zəngin təbii sərvətləri qorumaq, bununla yanaşı, istənilən digər xarici təcavüzlərə sinə gərmək kimi bir dövrə təsadüf etmişdi.***

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən Milli Ordumuz yaradıldı və yaradılmaqla bərabər, bu ordunun təkmilləşməsi üçün mühüm strateji hədəflər müəyyənləşdirildi. Təhsildə müəllimlərin üzərinə hansı məsuliyyət düşürsə, ordu quruculuğunda da hərbçi kadrlara elə ehtiyac duyulur. Azərbaycanın gələcəkdə müstəqil olacağına böyük ümidlər bəsləyən ümummilli lider Heydər Əliyev hələ sovet dövründən azərbaycanlı zabit kadrların yetişdirilməsi işinə start vermişdi. Xüsusilə ölkəmizdə milli hərbi təhsil bazasının formalaşdırılması bu istiqamətdə həyata keçirilən mühüm tədbirlərdən biri idi. Ötən əsrin 70-ci illərinin əvvəllərində gərgin mübarizələrdən sonra Bakıda Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəbin açılması bu yolda atılan ilk addım idi. Hansı ki bu məktəbin məzunları ötən əsrin sonlarında Milli Ordu quruculuğunun iştirakçısına çevriləcək, həm də orduda zabit kadrlarının hazırlanmasına öz töhfəsini verəcəkdi. Ümumilikdə isə paytaxt Bakı şəhərində yerləşən o zamankı Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi və Bakı Ali Hərbi Dənizçilik Məktəbi keçmiş SSRİ-də nüfuzlu ali hərbi məktəblərdən sayılmaqla bərabər, müstəqil Azərbaycanın quru və dəniz sərhədlərinin müdafiəsində mühüm rol oynayacaqdı. Ümummilli liderin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra bu məktəblərin təhsil bazasının milli zəmində formalaşdırılması ordu quruculuğunda həm də yeni bir səhifə idi. Həmin dövrdə adıçəkilən ilk hərbi məktəbin kursantı olaraq bu işin necə çətin bir proses olduğunu indi də yaxşı xatırlayıram. Xüsusilə doğma dilimizdə yeni hərbi tədris vəsaitlərinin nəşri, böyük maliyyə vəsaiti tələb edən maddi-texniki bazanın yenilənməsi görülən işlərin, sadəcə, bir hissəsi idi.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizin müdafiəsi ilə bağlı mühüm tədbirlər həyata keçirilib. Müdrik rəhbərin səyləri nəticəsində ölkədə xalqın orduya, ordunun isə dövlətə inamı artdı. Hərbi təhsil sahəsində köklü islahatlar aparıldı. Bütün bunlarla yanaşı, ulu öndər blokadaya salınmış Naxçıvanı da unutmur, buradakı insanların vəziyyəti, xüsusən də hərbi hissələrdə döyüş hazırlığının səviyyəsi barədə muxtar respublika rəhbərliyindən müntəzəm məlumatlar alırdı. O dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvanda C.Naxçıvanski adına Hərbi Liseyin filialını açmaq barədə təşəbbüs irəli sürdü. Ulu öndər bu təşəbbüsü bəyənərək “Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması haqqında” 13 mart 1998-ci il tarixdə Sərəncam imzaladı.

1999-cu ilin oktyabr ayında muxtar respublikanın 75 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn dahi şəxsiyyət Heydər Əliyev C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yeni tədris korpusunun təntənəli açılışında filialın yaradılmasının əhəmiyyətindən danışıb: ***“Naxçıvanın Azərbaycandan aralı düşməsi və bir çox sahələrdə əlaqələrin çox çətin olması, əlbəttə, buradakı gənclərin gedib Bakıdakı Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olması üçün çətinliklər yaradır. ...Hərbi Liseyin burada filialının yaradılması zərurəti bir də ondan irəli gəlir ki, tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, Sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ...Ona görə də burada olan gənclərin hərbi peşəyə cəlb etmək üçün Hərbi Liseyin filialının yaradılması çox zəruri idi. ...Mən özünü bu peşəyə həsr edənləri yüksək qiymətləndirirəm, onlara öz hörmət və ehtiramımı bildirirəm... Buradakı müəllim, zabit heyətinə müvəffəqiyyət arzu edirəm...”***

2001-ci ildə Hərbi Liseyin Naxçıvan filialının ilk buraxılışı oldu. Elə həmin il filialın ilk 50 nəfər məzunundan 49-u ali hərbi məktəblərə qəbul olundu. 2002-ci ilin iyun ayında muxtar respublikaya növbəti səfəri zamanı ulu öndər Heydər Əliyev C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialına da gəlib. Ümummilli liderimiz zabit-müəllim heyəti qarşısında böyük və məsuliyyətli vəzifələr durduğunu bildirərək deyib ki, onlar təkcə öz peşələrinə bağlı deyil, başqa lazımlı sahələrdə də biliklərini artırmalı və bu bilikləri layiqli kadrların hazırlanmasına yönəltməlidirlər. O zaman ümummilli liderimiz kursantlara müraciətlə belə demişdi: ***“Mən sizə baxaraq Azərbaycanın gözəl gələcəyini görürəm. Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Biz Azərbaycanın gələcəyini gənclərə etibar edirik. Əziz övladlarımız, sizə etibar edirik. Siz isə bu ümidlərimizi, arzularımızı doğrultmalısınız. İnanıram ki, doğruldacaqsınız”.***

Bəli, bu tarixi çıxışdan 2 il sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında” 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında müstəqil Hərbi Lisey yaradıldı.

Artıq 9 ildir, müstəqil fəaliyyətini sürdürən Heydər Əliyev adına Hərbi Liseyin məzunları içərisində hazırda Silahlı Qüvvələrin müxtəlif qoşun növlərində xidmət edən yüzlərlə zabit var. Sevindirici haldır ki, muxtar respublikada belə bir Hərbi Liseyin fəaliyyət göstərməsi ildən-ilə hərb sənətinə marağı olanların sayının da artmasına səbəb olub. Hər il muxtar respublikamızın bölgələrindən, həmçinin ölkəmizin müxtəlif regionlarından yüzlərlə gənc-yeniyetmə adıçəkilən məktəbə qəbul olunmaq üçün sənəd verir. Təkcə bu il məktəbə 995 nəfər sənəd verib ki, onlardan da 225 nəfəri liseyə qəbul olunub. Liseydə yaradılmış hərtərəfli şərait – müasir fənn kabinələri, müxtəlif tədris avadanlıqları ilə təmin edilmiş siniflər, kitabxana, idman zalı, yeməkxana, yataqxana və sair burada kursantların hərtərəfli bilik və bacarıqlara yiyələnməsi üçün geniş imkanlar açır. Liseyin tədris prosesində kursantların vətənpərvərlik tərbiyəsinə böyük üstünlük verilir, onlara milli ruhun təlqin olunması, tariximizə, dilimizə, mədəni irsimizə, dövlət atributlarına hörmət və ehtiram hisslərinin aşılanması daim diqqət mərkəzində saxlanılır. Əldə olunmuş nailiyyətlərin nəticəsidir ki, ölkə başçısının sərəncamı ilə Heydər Əliyev adına Hərbi Lisey 2009-cu ildə “İlin ən yaxşı ümumtəhsil məktəbi” adına layiq görülüb.

Liseydə hamı tərəfindən müqəddəs sayılan yerlərdən biri də burada yaradılmış Heydər Əliyev Muzeyidir. 2005-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev liseydə olarkən muzeyi ziyarət edib, buradakı rəy kitabına öz ürək sözlərini yazıb: *“Əziz kursantlar, Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqına həsr edilmişdir. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Heydər Əliyev siyasətini əbədi yaşatmalıyıq. Ölkəmizi onun qoyduğu yolla irəliyə aparmalıyıq. Əziz kursantlar, yaxşı oxuyun, hərb işini mükəmməl öyrənin, ölkəmizin inkişafında fəal iştirak edin”.*

***Bəli, artıq yeni tədris ilinə start verilib. İnanırıq ki, hərb sənətini özünə daimi peşə seçənlər bu liseydə təhsil almağın şərəf və məsuliyyətini dərindən dərk edəcək, dahi şəxsiyyətin Azərbaycanın gələcəyinin bu gənclərə etibar ediləcəyi fikrini heç zaman unutmayacaqlar. Öz doğma ailələrindən yeni bir müqəddəs ailəyə toplaşan kursantlar Vətənə xidmətin ilk əlifbasını da burada öyrənəcəklər. O Vətənə ki onu bizə ulu öndərimiz Heydər Əliyev əmanət edib!***

Səbuhi HƏSƏNOV

*Məmməd Araz – 80*

# Sözün ustad qələminə tuş gəldiyi sənətkar

**İnsan kimi, sözün də heysiyyəti, qüruru var. Bu heysiyyət, qürur o zaman duyulur, o zaman dərk olunur ki, o, əsl sənətkar qələminə tuş gəlir. Ədəbi dilimizin zənginliyinin ən bariz göstəricilərindən olan sözün tuş gəldiyi ustad qələm sahiblərindən biri də Məmməd Arazdır. Məmməd Araz dilin ədəbi normaları içərisində bədii norma yaratmaqda, dilin fövqünə qalxmaqda böyük istedad sahibi şairlərimizdəndir. Onun şeirləri ötən əsrin 70-80-ci illər ədəbiyyatının təsvir diapazonunun genişlənməsində, təsvir və tərənnüm gücünün dolğunlaşmasında xüsusi rolu olmuş kamil yaradıcılıq nümunələridir. Bu xüsusilik şairin dilinin məntiqi və hissi cəhətləri ilə səciyyələnir. Bu baxımdan M.Araz yaradıcılığı bədii təfəkkürün mükəmməl nümunələri kimi də dəyərləndirilir. M.Arazın dili həm də duyğuludur; bu dil insanı həyəcanlandırır, kövrəldir, onu yaşamadığı anların xəyalını qurmağa sövq edir. Ən maraqlısı budur ki, bu xəyaladalma qətiyyən xəyalpərəstlik deyil; bu, keçmiş üzərində gələcəyin qurulması aksiomunun xəyali təsviridir:**

*Bir gün həyatımda yellər qopacaq,*
*Ömür öz tağından salacaq məni.*
*Neçə il üstündə gəzdiyim torpaq*
*Bir gün də qoynuna alacaq məni.*

M.Araz yaradıcılığında sözlərlə yanaşı, söz birləşmələri, hətta cümlələr belə, məcazi mənada işlədilməklə təsirli mətnaltı məna, şeriyyət yaradır:

*Qopdu bir ömür də öz budağından,*
*Qopdu saralmamış bir yarpaq kimi.*

Yuxarıdakı misralar bir-birini tamamlayan və oxucuya dərin məna ifadə edən mükəmməl şeriyyət nümunəsidir. Şair iki misra ilə öz qəhrəmanının hələ cavan yaşında ikən bu dünyadan köç etdiyini mətnaltı məna ilə ifadə etmişdir. İkinci misradakı "saralmamış yarpaq kimi" birləşməsində şairin qəhrəmanının ömrünün yaz çağında bitdiyi obrazlı şəkildə oxucuya çatdırılır.

***Yaxud:***

*Bir taleyin oyununda cütlənmiş zərik,*
*Yüz il qoşa atılsaq da, qoşa düşmərik.*
*Bir zərrənin işığına milyonlar şərik –*
*Dünya sənin,*
*Dünya mənim,*
*Dünya heç kimin!*

"Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya" – bu həqiqəti Dədə Qorquddan sonra bu qədər tutarlı bədii, məcazi və mətnaltı formada ifadə edən uğurlu misralar yalnız Məmməd Araz qələmindən qopa bilərdi.

Ədib dilin normaları çərçivəsində yeni bədii norma yaratmış, dilin istər qrammatik, istərsə də leksik məhdudiyyətindən fövqünə varmışdır. Bu isə insandan böyük istedad, yaradıcı münasibət tələb edir.

*Sinəsi od tutsun soyuq məzarın,*
*Sənət çiçəyimiz nə vaxtsız solur.*
*Görünür, ürəklə yaşayanların*
*Elə ölümü də ürəkdən olur.*

Bu banddа Azərbaycan ədəbi dilinin həm leksik, həm də qrammatik normaları bilərəkdən pozulmuşdur. Məcazi mənada işlədilən "məzarın sinəsi"nin "od tutması" mümkün deyil, lakin şair bununla oxucu düşüncəsində dərin məna, eyni zamanda geniş anlayış yaratmağa müvəffəq olmuşdur. Bəndin sonuncu misrasında isə ədəbi dilin qrammatik norması "pozulmuşdur". Belə ki, qrammatik normaya görə, köməkçi sözlər (misradakı "elə" ədatı) aid olduğu əsas sözün ("ürəkdən" sözünün) yanında işlənməlidir. Bu misradakı "elə" sözü "ürəkdən" sözünə aiddir. Lakin sənətkar bilərəkdən köməkçi sözü aid olduğu sözdən "uzaqlaşdıraraq" həmin köməkçi sözü hər iki sözə – "ölümü" və "ürəkdən" sözünə aid etməyi bacarmışdır. Beləliklə, şair hər iki sözü qüvvətli şəkildə diqqətə çatdırmaqla biz oxuculara təlqin edir ki, bəndin əsas qayəsi, ağırlığı məhz sonuncu misradadır. Başqa sözlə, fikri tamamlayan sonuncu misradır.

Görkəmli sənətkarın şeir dilinin özünəməxsusluğu bir də ondadır ki, şair sözü həqiqi mənada işlətməklə bədiilik, şeriyyət yaradır.

*Vətən mənə oğul desə, nə dərdim:*
*Mamır olub qayasında bitərdim.*

Vətən qayasında mamır olmağı şair məhz həqiqi mənada bir arzu, istək, həyat amalı kimi idrak edir.

Sözün həqiqi mənasını mühafizə etməklə əsl poetik əsər, bədii nümunə yaratmaq çox müşküldür. Xüsusilə poeziyada sözün həqiqi real mənası emosionallığa, emosional ifadə tərzinə həmişə əngəl törədir. Lakin belə bir cəhət M.Arazın bədii dil üslubuna mane olmur, əksinə, onu novator sənətkar kimi tanıdır. Sənətkarın böyüklüyü də məhz çətini asanlaşdıra bilməsindədir:

*Duz axtaran körpə cüyür balası*
*Ağ daşlara körpə cığır salası...*
*Qayaların su saxlayan çalası,*
*Salamat qal, salamat!*

İstiqlal şairinin dili bəzən oxucunu tarixi keçmişlə üz-üzə qoyur, onu tarixi vərəqləməyə sövq edir. Bu üzləşmə əsl həqiqət kimi oxucu ürəyini yandırır, onu keçmişin acı həqiqətlərindən nəticə çıxarmağa çağırır:

*O qəhqəhin dalğasından,*
*O məstliyin başfırladan*
*Havasından qopan daşdı –*
*Azərbaycan torpağında*
*Araz boyda şırım açdı.*

***Və ya:***

*Dibək oldun öz duzunla, öz daşınla,*
*Ögey oldun doğma, əkiz qardaşınla...*

Bu misralardakı mənanın gücü məhz sənətkarın ustalığındadır. Şair sözləri elə sıralayır, yerində işlənməni elə aparır ki, misralar oxunarkən oxucu sanki bu hadisənin səbəbkarı kimi gözlərini şeirdən ayırmaq istəmir, hətta buna görə şairdən üzr istəyir. Beləcə, Məmməd Araz yaradıcılığı su saxlayan qaya çalasıyla halal-hümmət edən bir obrazı, "Xətainin süqutuna qəh-qəh çəkənləri" söz qılıncı ilə doğram-doğram edən qəhrəmanı canlandıran mükəmməl ifadə üslubu ilə yoğrulmuş nümunələr toplusundan ibarətdir.

Beləliklə, Məmməd Araz üslubu müxtəlif xüsusiyyətləri ilə səciyyələnir. Və bu xüsusilik bir-birilə əlaqədə olub, bir vəhdətdə, vahidin daxilində – M.Araz imzalı şerin tərkibində şeriyyət yaranmasına xidmət edir. Bu şeriyyət azadlıq eşqi ilə çırpınan qalib xalqın istiqlal səsi idi.

M.Arazın əsərlərini, bədii irsini oxuduqca gözlərimiz önündə bədii dilin keşiyində dayanan söz sərkərdəsi canlanır. Bu sərkərdə Ana dilinin şirinliyini, ifadəliliyini, tarixiliyini öz nitqində daim canlı insan kimi yaşadır. Və bu sərkərdənin "silahı" ana dilinin qədim və zəngin tarixidir; gücü isə bu dilə olan sonsuz məhəbbətdədir. Ədibin bəzi şeirlərində mənası, tələffüzü tarix olmuş sözlərin, ifadələrin canlandığının şahidi oluruq:

*Eh, nə bilim, hər bir dərdi taleyinə*
*İnsan özü **gözəmirmi?***

***Yaxud:***

*Bu gileydən qəlbim yaman xallanır:*
*Çox ünvanda qaçaq tərif **yallanır.***

Əsl, həqiqi, böyük poeziya ümumbəşəri yaddaşdır. Və məncə, Məmməd Araz yaradıcılığı başdan başa düşüncədə, əxlaqda və qeyrətdə yaddaşın poetik ifadə tərzindən ibarətdir.

Poeziyanın dumduru, şəffaf bulağı başına o, Arazın bulanıq və paralı sahilindən ayrılıb gəldi; özü ilə poeziyaya Arazın dərdini, ağrısını da gətirdi, tarixdən və təbiətdən, Ana dilindən, bayatıdan, folklordan axan bir Araza döndü – Məmməd Araz oldu!

***Xalq şairi Məmməd Arazın 80 illik yubileyi münasibətilə qəzetimizdə ədibin həyatının müxtəlif anlarına, yaradıcılığının əhatə etdiyi müxtəlif mövzulara həsr olunmuş xeyli məqalə dərc edilmişdir. Bu məqalələrin araya-ərsəyə gəlməsinə əsas stimul Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Xalq şairinin 80 illik yubileyinin keçirilməsi ilə bağlı 8 iyun 2013-cü il tarixli Sərəncamı olmuşdur. Məhz bu sərəncamla ədibin yaradıcılığı yenidən araşdırılır, həyatı və əsərləri haqqında yeni, orijinal fikirlər söylənilir. Sərəncamda deyildiyi kimi, "...yarım əsrdən artıq davam edən ədəbi fəaliyyəti mənsub olduğu xalqa layiqli şair – vətəndaş xidməti olan" ustad sənətkar bu qayğıya, diqqətə layiqdir.***

**Səyyar MƏMMƏDOV**

***"...İlahi, bütün hərəkətlərimdə və mühakimələrimdə məni qane et. Yalnız biliklə qane etmə. Çünki istəyirəm, "bilik acı" olum, ondan doymayım... Mənə biliklərimi genişləndirmək üçün elə qüvvə, iradə və qabiliyyət ver ki, ağlım səhvlərimi tapsın və onları dərk etsin..."***

**Maymonid, "Həkimin gündəlik ibadəti"**

# Bilik cəmiyyətə faydalı olmaq üçün qazanılmalıdır

## *Şahbuzlu təhsil işçilərinin də əsas hədəfi ölkəmizin parlaq gələcəyinə xidmət edəcək gənclər yetişdirməkdir*



"Təhsilsiz insan, cilasız aynaya bənzər, təhsilli isə öz azadlığını özü təmin edər" deyirlər. Yaxşı təhsil almış övlad yetişdirmək, o övladı hər hansı bir sahədə uğur qazanan biri kimi cəmiyyətin ən ali təbəqələrindən birində görmək hər bir valideynin ən böyük arzusudur. Təbii ki, dövrün və zamanın tələbləri hər bir gəncin təhsilinə öz müsbət və ya mənfi təsirini göstərir. Bu gün dünyada elə ölkələr var ki, orada yaxşı təhsil almaq üçün yaxşı maddi vəziyyət, bəzi ölkələr də var ki, yaxşı şərait tələb olunur. Elə ölkələr də var ki, uşaqlar maddi çətinliklər, yararsız infrastruktur üzündən məktəbə gedə bilmirlər. Bizdə isə vəziyyət əksinədir. Gündən-günə qüdrətlənən dövlətimiz elm, bilik arxasınca gedən hər bir uşaq və yeniyetmənin, eləcə də gəncin qarşılaşdığı hər bir çətinlikdə onun yanındadır. Uşaqların yaxşı təhsil ala bilmələri üçün geniş imkanlar mövcuddur.

İndi kənardan universiteti xatırladan məktəblərimiz də var, təhsilin keyfiyyətində başlıca amillərdən olan ən müasir texnologiyalar da. Naxçıvan şəhərinin mərkəzindən tutmuş ucqar dağ kəndlərinə qədər hər bir yaşayış məntəqəsi təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən bəhrələnib. Şahbuz rayonunda son illərdə bu sahədə görülən işlərin miqyası buna əyani misaldır. Son illərdə rayonda yeni məktəb binaları inşa edilib, neçə-neçə təhsil ocağının binası yenidən qurulub. Quruculuq tədbirləri ən ucqar dağ kəndlərini də əhatə edib. Təbii ki, göstərilən qayğı nailiyyətləri də artırıb. Bu gün muxtar respublikada təhsil sahəsində qazanılan nailiyyətlərdə şahbuzlu təhsil işçilərinin, ümumilikdə, rayon təhsilinin öz yeri və payı var. 2012-2013-cü tədris ilində rayonun ümumtəhsil məktəblərini 248 məzun bitirib, onlardan 182-si ali məktəblərə qəbul imtahanlarında iştirak edib. İmtahanların nəticələrinə görə, 101 nəfər tələbə adını qazanıb. Tələbələrdən 7 nəfəri 600-700, 20 nəfəri isə 500-600 intervalında bal toplayıb. Bundan başqa, orta ixtisas təhsili müəssisələrinə 11 illik təhsil bazasından 20, 9 illik təhsil bazasından isə 26 nəfər qəbul olunub. Sözsüz ki, bu göstəricilər muxtar respublikada, eləcə də rayonda təhsil sahəsinə göstərilən dövlət qayğısının uğurlu nəticələrindən xəbər verir.

Rayon Təhsil Şöbəsinin müdiri Tarverdi Qurbanov deyir ki, muxtar respublikada təhsil sahəsi üzrə müvafiq proqramların uğurlu icrası, yeni tədris metodlarının səmərəli tətbiqi Şahbuz rayonunun təhsilində də bir sıra nailiyyətlər qazanılmasına imkan yaradıb. Bundan başqa, təhsil infrastrukturu quruculuğu sahəsində görülən işlər, rayonda təhsil sahəsində çalışanlar üçün seminarların, müşavirələrin, konfransların təşkili, ictimaiyyətlə, xüsusən də valideynlərlə müvafiq istiqamətlər üzrə ələqələrin inkişaf etdirilməsi təhsilin dinamik inkişafını təmin edib.

"Bilik cəmiyyətə faydalı olmaq üçün qazanılmalıdır. Elm, bilik o qədər böyük qüvvə mənbəyidir ki, insan onun sayəsində ən böyük çətinliklərin öhdəsindən gələ bilər". Bunu Kükü kənd tam orta məktəbinin müəllimi Yunis Quliyev deyir. Məlumat üçün qeyd edək ki, o, bu il "Ən yaxşı müəllim" müsabiqəsində müvəffəqiyyət qazanıb. Onun dediklərindən: – Son 17 ildə muxtar respublikada təhsilin keyfiyyətlə həyata keçirilməsi üçün yeni məktəb binaları tikilib, zəruri infrastruktur yaradılıb. Onu da deyim ki, şagirdlərin idrak fəallığına, ümumi inkişafına təsir edən "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçid tam təmin olunub, istedadlı uşaqlar üçün inkişafetdirici proqramlar yaradılıb. Bu gün muxtar respublikanın məktəblərində, eləcə də Şahbuz rayonunun məktəblərində elektron təhsil texnologiyalarının tətbiqi əhəmiyyətli şəkildə genişləndirilib, müəllim və şagirdlər üçün virtual öyrənmə mühiti formalaşdırılıb. Sözsüz ki, bütün bu amillər, son nəticədə, rayonda təhsilin inkişafına xidmət edir. Məktəblilərə bu fikirlər aşılanır ki, dövlətimiz tərəfindən çəkilən xərclər o məqsədi daşıyır ki, sabah gənclərimiz dövlətimiz və cəmiyyətimiz üçün faydalı insanlar olsunlar. Əgər bir hüquqşünas və yaxud müəllim öz ixtisasını buraxıb yaxşı gəlir dalınca başqa bir işin və ya peşənin ətəyindən yapışıbsa, deməli, dövlət tərəfindən onun yetişdirilməsinə çəkilən zəhmət də əbəs olub, həmin gəncin qazandığı bilik faydasızdır. Onun öz yerini tapmaması üçün də səbəb ola bilməz. Çünki bu gün vətəndaşa elə keyfiyyətli təhsil verilir ki, o, həmin bazadan istifadə edərək asanlıqla cəmiyyətdə öz yerini tapa bilər.

Bu il qəbul imtahanlarında 641 bal toplayaraq rayon üzrə ən yüksək nəticə göstərən, Şahbuzkənd tam orta məktəbindən məzun olan Ramazan Hüseynzadə ilə söhbətimiz qazandığı nailiyyət barədədir. Söhbət zamanı məlum olur ki, o, müəllim ailəsində böyüyüb boyabaşa çatıb. Daha dəqiqi, atası Şirin müəllim uzun illər məzun olduğu məktəbdə işləyib. Deyir ki, bir müəllim övladı kimi üzərimdə ikiqat məsuliyyət hiss eləmişəm. Atam müəllim olub və mənim kimi yüzlərlə şagirdə bilik öyrədib, nisbətən zəif olanlara və yaxud tənbəllik edən şagirdlərə irad tutub, yaxşıları nümunə göstərib, hər kəsi həvəsləndirib. Digər tərəfdən, bizim üçün rahat, işıqlı siniflər, fənn kabinələri yaradılıb. Ən yeni texnologiyalar ixtiyarımıza verilib. Qışda isti, yayda sərin siniflərdə dərs keçmişik. Bütün bunların qarşılığında isə zəif oxumağa mənəvi haqqım yox idi. Ona görə hər bir çətinliyin öhdəsindən gəlməyə çalışdım, oxudum, öyrəndim. İmtahanlarda nəticəm də yaxşı oldu. Ramazan onu da dedi ki, ötən ayın 20-də ümumtəhsil məktəblərini bitirmiş və ali məktəblərə qəbul imtahanlarında 500-700 intervalında bal toplamış tələbə gənclərlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin görüşündə iştirak etməsinə görə böyük qürur və fərəh hissi keçirir. Bu tədbirdə muxtar respublika rəhbərinin ***"Nəzəri fəaliyyət o vaxt real məzmun kəsb edir ki, onun nəticələri təcrübə ilə möhkəmlənsin… Çalışın ki, yaradılanlardan lazımınca bəhrələnə biləsiniz. Alınan bilikləri təcrübədə doğrultmaq, əmək sərf edərək əsl mütəxəssis kimi yetişmək sizin əsas borcunuzdur"***, – deyə gənclərə müraciəti onun gələcəyi üçün fəaliyyət devizi olacaq. Bütün tələbələr kimi, o da muxtar respublika rəhbərinin bu görüşdəki hər bir tövsiyəsinə əməl etməyə səy göstərəcək, məhz bu tövsiyələr əsasında gələcəyini quracaq.

Vaxtilə milli maarifçilik hərəkatının öncülləri olan Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Mirzə Şəfi Vazeh, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məhəmməd Tağı Sidqi, Firidun bəy Köçərli və digər görkəmli şəxsiyyətlərin insanların təhsil almasında gördükləri işlər, çəkdikləri əzablar əsl fədakarlıq və vətənpərvərlik nümunəsidir. Bu gün muxtar respublikada, eləcə də Şahbuz rayonunda təhsil sahəsində qazanılan nailiyyətlər bir daha göstərir ki, o fədakarlıqlar indi də davam etdirilir. İndi bu fədakarlıqlar təkcə ayrı-ayrı şəxslər tərəfindən deyil, dövlət adamlarımız, təhsilimizin qayğısına qalan rəhbərimiz tərəfindən edilir. Bu da gələcəyimizin daha etibarlı əllərdə olacağına əminlik yaradır, daha xoş sabahlara təminat verir.

**Səbuhi HÜSEYNOV**

# Seçki marafonu

## 9 oktyabr Azərbaycan Respublikası Prezidentinin seçkiləri günüdür

Prezident seçkiləri - 2013

***Beynəlxalq (xarici) müşahidəçilər qanunla müəyyənləşdirilmiş qaydada və müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməlidirlər.***

**Hörmətli seçicilər!**

Beynəlxalq (xarici) müşahidəçilər (bundan sonra beynəlxalq müşahidəçilər) Seçki Məcəlləsinin 44.2-ci maddəsində nəzərdə tutulmuş qaydada dəvət olunurlar. Dəvətlər seçkilərin təyin edilməsi barədə qərar rəsmi dərc edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra Mərkəzi Seçki Komissiyası) tərəfindən göndərilə bilər.

İnsan və vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində nüfuzu olan qeyri-hökumət təşkilatları da beynəlxalq müşahidəçilərin dəvət olunması haqqında öz təkliflərini Milli Məclisin deputatlarına, Mərkəzi Seçki Komissiyasına, habelə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə verə bilərlər.

**Azərbaycan Respublikası vətəndaşlarının beynəlxalq müşahidəçi kimi fəaliyyət göstərməsi qadağandır.**

Beynəlxalq müşahidəçi statusunu əldə etmək niyyətində olan xarici vətəndaşlar qeydə alınmaq üçün seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək müvafiq ərizə ilə Mərkəzi Seçki Komissiyasına müraciət edir. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə olunur.

Hər bir ərizə əsasında qeydəalınma məsələsinə Mərkəzi Seçki Komissiyası tərəfindən 2 gün müddətində baxılır. Müşahidənin aparılmasına rədd cavabı yalnız ərizədə göstərilən məlumatlar təsdiq olunmadıqda verilə bilər.

Müşahidənin aparılmasına icazə verildikdə Mərkəzi Seçki Komissiyası beynəlxalq müşahidəçiyə Azərbaycan Respublikasının dövlət dilində və xarici dillərdən birində onun təqdim etdiyi sənədlərə uyğun tərtib edilmiş vəsiqə-lövhəcik verir.

**Yalnız belə lövhəciyi əldə etdikdən sonra beynəlxalq müşahidəçi seçkilərin hazırlanması və keçirilməsi dövründə Seçki Məcəlləsinin 40-42-ci maddələrinə uyğun olaraq fəaliyyət göstərə bilər.**

Beynəlxalq müşahidəçilər Azərbaycan Respublikasının ərazisində olduqları müddətdə dövlətin mühafizəsi altına alınırlar. Beynəlxalq müşahidəçilər fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, müstəqil və sərbəst həyata keçirirlər. Seçki komissiyaları, dövlət hakimiyyəti orqanları və bələdiyyə qurumları tərəfindən onlara zəruri kömək göstərilməlidir.

**Beynəlxalq müşahidəçinin fəaliyyəti onu göndərən tərəfin və ya özünün şəxsi vəsaiti hesabına maliyyələşdirilir.**

* * *

**Beynəlxalq müşahidəçilər digər müşahidəçilərlə eyni hüquqlara malikdirlər və eyni vəzifələri daşıyırlar.**

**Beynəlxalq müşahidəçilərin aşağıdakı hüquqları vardır:**

*- seçici siyahıları ilə tanış olmaq;*

*- səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq və ultrabənövşəyi lampadan istifadə etməklə seçicilərin barmaqlarının mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlamaq prosesini izləmək;*

*- seçki bülletenləri verilməzdən əvvəl ultrabənövşəyi lampadan istifadə etməklə seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsini müşahidə etmək;*

*- seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə etmək;*

*- seçicilərin sayını hesablamaq, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;*

*-müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək;*

*-seçki komissiyasının qanuni fəaliyyətinə maneə törətmədən müşahidə aparmağı təmin edən şəraitdə və müşahidənin maneəsiz aparılmasına imkan verən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədilə baxmaq, səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında seçki komissiyasının protokolu ilə və digər sənədlərlə tanış olmaq;*

*- səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək;*

*- seçki komissiyalarının sənədlərinin, o cümlədən səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların, səsvermə günü seçki komissiyasının işə başladığı və seçki qutularının kilidləndiyi andan seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək seçki komissiyaları tərəfindən tərtib edilmiş və ya onlara əlavə olunmuş qoşma sənədlərin təsdiqlənmiş surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxarmaq və ya almaq, əlavə nüsxələri Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə çıxarmaq və ya almaq;*

*- səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq;*

*- müvafiq seçki komissiyalarında seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;*

*- seçki komissiyalarında seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə etmək;*

*- səsvermənin nəticələrinin və seçkilərin yekunlarının müəyyənləşdirilməsini müşahidə etmək;*

*- səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında protokolun tərtib olunmasını müşahidə etmək;*

*- səslərin hesablanmasını və ya təkrar hesablanmasını müşahidə etmək;*

*- səslərin paralel sayılmasında iştirak etmək;*

*- səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyası protokolunun 1-ci nüsxəsinin dairə seçki komissiyasına göndərilməsini müşahidə etmək;*

*- qanunla qadağan edilməyən digər hərəkətlər (hərəkətsizlik) etmək.*

**Tərcüməçinin qeydə alınması qaydası:**

Seçki prosesində beynəlxalq müşahidəçilərə tərcüməçilik xidməti göstərmək niyyətində olan şəxs müvafiq ərizə ilə Mərkəzi Seçki Komissiyasına müraciət edir. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə olunur.

Mərkəzi Seçki Komissiyası həmin şəxsə müvafiq lövhəcik verir.

**Tərcüməçinin səlahiyyət müddəti tərcüməçilik xidməti göstərdiyi şəxsin səlahiyyət müddəti ilə məhdudlaşır.**

Beynəlxalq müşahidəçinin səlahiyyət müddəti Mərkəzi Seçki Komissiyasında qeydə alındığı gündən başlanır və seçkilərin yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün bitir.

Beynəlxalq müşahidəçilər Azərbaycan Respublikasının qanunlarını, beynəlxalq hüquq normalarını pozduqları hallarda Mərkəzi Seçki Komissiyası onların qeydiyyatını ləğv edə bilər.

Beynəlxalq müşahidəçinin səlahiyyətlərinə qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda və qaydada da xitam verilə bilər.

**Müşahidəçilərə aşağıdakı hərəkətlər qadağan edilir:**

*- seçicilərə seçki bülletenləri vermək;*

*- seçiciyə necə səs verəcəyi və necə səs verdiyi haqqında sual vermək;*

*- seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteninin alınması haqqında imza etmək;*

*- seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;*

*- seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;*

*- seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;*

*- seçicilər arasında təşviqat aparmaq;*

*- bu və ya digər namizədin, siyasi partiyanın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;*

*- müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;*

*- seçicilərin barmaqlarını mürəkkəblə işarələmək və ya ultrabənövşəyi lampa ilə seçicilərin barmaqlarının işarələnib-işarələnmədiyini yoxlamaq;*

*- seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla);*

*- qanunla qadağan edilən digər hərəkətlər (hərəkətsizlik) etmək.*

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

## Bütün tibb müəssisələrində eyni resept və kargüzarlıq blanklarından istifadə ediləcək

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tabeliyində olan bütün tibb müəssisələrində eyni resept və kargüzarlıqda istifadə edilən jurnal və blanklardan istifadə olunması üçün müvafiq tədbirlər həyata keçirir. Bu məqsədlə vahid resept blankı forması və digər jurnalların standart formaları tərtib və təsdiq edilib, onun tibb müəssisələri arasında paylanma qaydaları müəyyənləşdirilib. Artıq iki ildən çoxdur ki, həm Səhiyyə Nazirliyinin tabeliyində olan, həm özəl, həm də digər dövlət qurumlarının nəzdindəki müalicə-profilaktika müəssisələrində vahid resept və kargüzarlıq blanklarının tətbiqi davam etdirilir.

Bu tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin sifarişi ilə bir neçə gün əvvəl "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində lazımi miqdarda vahid resept, kargüzarlıqda istifadə olunan jurnallar və blanklar çap olunaraq nazirliyə təhvil verilib. Hazırda həmin çap məmulatlarının dövlət müalicə-profilaktika müəssisələrinə ödənişsiz olaraq paylanması davam etdirilir. Təcili yardım çağırışları, ambulator və stasionar cərrahiyyə əməliyyatları, evə çağırış, işə davamiyyət, hamilələrin, profilaktik peyvəndlərin qeydiyyatı və patronajı, eləcə də digər qeydiyyat jurnalları, uşağın fərdi inkişaf vərəqələri və sair formalar vahid nümunələr sırasında yer alır.

İmtiyazlı xəstələr üçün nömrəli pulsuz reseptlərin və ambulator xəstələr üçün resept blanklarının vahid formada olması müsbət cəhətlərdən biridir. Bütövlükdə, vahid formalı reseptlər hansı tibb müəssisəsində və kim tərəfindən yazıldığını müəyyənləşdirməyə imkan verəcəkdir. Eyni zamanda hansı tibb müəssisəsi tərəfindən pulsuz reseptlərin daha çox yazılması ilə bağlı statistik məlumatları toplamağa da şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşamış Hüseynova Təhminə Abbas qızının adına olan JN-130^A inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Əliyeva Ceyran Məmmədcəfər qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Rəşidov Ədalət Müseyib oğlunun adına olan 686 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Binyətova Samirə Zahid qızının adına Naxçıvan Muxtar Respublikasının Kompüter Təlim-Tədris və İnternet Mərkəzi tərəfindən verilmiş şəhadətnamə itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Hacıfəxrəddin Səfərli və institutun kollektivi iş yoldaşları Toğrul Xəlilova, əmisi

**DOLXANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı

**Baş redaktor:** TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Nömrəyə məsul:* Elnur Kəlbizadə

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 846